UOT 930

HƏSƏNAĞA RAMAZANLI
AMEA, Arxeologiya və Etnoqrafya İnstitutunun
«Azərbaycanın Neolit-Eneolit dövrü arxeologiya»sı şöbəsinin
aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru
Ramazanli1946@mail.ru

AKADEMİK Y.M.MAHMUDLUNUN ƏSƏRLƏRİNDƏ ELMLƏRİN DİFFERENSİYASI, TƏMƏRGÜZLƏŞMƏSİ, METODOLOGİYASI, MƏNBƏŞÜNASLIQ VƏ TARİXŞÜNASLIQ PROBLEMLƏRİNİN HƏLLİ MƏSƏLƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/105/228-232

Ciddi fəaliyyət yolu seçmiş akademik Y.M.Mahmudlunun əsərlərində dialektik proseslər, diferensiallaşma, litoqrafiya, fundamental və tətbiqi tədqiqatlar kimi problemli məsələlərdən qaçmaq məsələləri praktiki olaraq sistemləşdirilərək yüksək səviyyədə əsaslandırılmışdır. Differensasiya, elmlərin qarşılıqlı formada yaxınlaşması, tarix elminin tədqiq etdiyi çərçivədə konkret problemlərin retrospektiv formasında, fundamental elmlərin mürəkkəb sistemində hal-hazırda insan mədəni həyatının mənşəyi keyfiyyət baxımından istifadə olunur.

Açar sözlər: Azərbaycan, mənbəşünaslıq, tarixşünaslıq, metodologiya, elmi-nəzəri, təhlil.

Giriş. Hazırkı dolaşıqlı yarımxaoslu zaman mərhələsi süni surətdə, zəncirvari mühitin irili-xırdalı bütün faktlarnının fəaliyyətinin, idrakının obyektivliyini təşkil edən [6], hadisələrin müəyyən təzahür amillərinin reallığı kimi, yəni elmi, obyektiv fakt, insan şüurundakını inkişafın həddi kimi qəbul olunan faktorları və onu canlandıran hər hansı bir cismin tərkib hissələri, fizikadakı, kimyadakı anlayış qaydaları ilə bağlı olaraq fiziki-kimyəvi sistemlərini və onların fazalarını göstərən komponentlərin sıx, həmçinin qarşılıqlı hərəkətdə, yeri düşəndə birini-digərinin orqanizminin mühitinin təcrid etmə sferasına daxil olan, tamlığın ayrı-ayrı hissələrinin birləşdirilməsi proseslərini təşkil edən, sintez mahiyyətinin vacib xüsusiyyətlərini aşmaqla yaxınlaşmaları üçün sonluqlarda xüsusi çəkiyə malik olmuş, əlverişli şəraitin ön plana gətirilməsinə yardım edərək, daha doğrusu canlı, materiyanın hərəkət şəkli, fiziki-kimyəvi faktorlara nisbətən keyfiyyətcə yüksək, onların «bitərəf»liliyini özündə ehtifa edən, həyatı birləşdirən oksigen, azot, müxtəlif qaz dəstləri: arqon, su buxarı, atmosferdəki hava tərkibinə daxil ola bilən qazlar kimi sosial-inkişafın proseslərə qoşulan, birləşən elmlərin təmərküzləşmələrini-qarşılıqlı qovuşmalarını vahid, müasir mərhələdəki elm sahələrini, təcrübi faktlarının bilavasitə inandırıcı şəkildə təsdiqləməyə çalışan fərdi-insanı əhatə edən, obyektiv-subyektiv aləmin [1], maddi–mənəvi [2] həyatını, hadisəni, həmçinin də baş verən müxtəlif prosesləri ayrılıqla bağlayan, mühafizə olunmuş halda deyil, qarşılıqlı fəaliyyətdə mövcud olub, bütövlülük mahiyyəti daşıyan, sistem formasında birləşdirən ümumi, hər hansı bir sonu bilinməyən əşyanı əhatə edən: qlobal makro (böyük, uzun-ölçülü və iri (mikro (xırda, kiçik, mürəkkəb söz, tərkib hissə) mühitli anlayış istiqamətlərinin qovuşmalarının elmi-nəzəi fikirləri ortaya atmağa sövq edir.

Elmlərin qarşılıqlı təsiri, ardıcıl hərəkətləri və bu sahədə miilli-özünədərkin [8] müəyyən məqsədlər daşıdığını təyin etməyini istiqamətləndirən, məvhum məcmusu hesab olunan, prosseslər zamanı bir-birini tamamlayan, elmi-nəzəri, saysız-hesabsız, çoxhüdudlu olsalar da ona beş böyük aspektdə yanaşmağın faydalı olması bilavasitə tövsiyyə olunur.

Müasir mərhələdə mühüm, nəhəng və mürəkkəb sosial vücuda çevrilənlərin formalarından biri olan, elm başlıca olaraq, ictimai dərketmənin, ilk növbədə insan fəaliyyətinin həqiqətlər haqqında obyektiv biliklərin nəzəri sistemləşdirilməsinin və formalaşdırılmasının funksiyalarını hazırlayır. Digər tərəfdən bilavasitə əsas məqsədi təsvir etmək, izah etmək və baş verən prosesləri onların məğlubiyyəti imkanlarını qabaqcadan xəbər verməkdən ibarətdir. Ümumilikdə hazırkı qloballaşma mərhələsində elm şərti olaraq dörd dəstə: təbiətşünaslığa, texnikaya, sosial-ictimai və humanitar sahələrə bölünmüşdür. Hazırkı mərhələdə elmlərin inkişafı iki taktiki gedişlər- ekstensiv (obyektə xarakter verir) və inqilabi dəyişmələr hər 10-15 il ərzində bir-birini əvəz edir. İndiki mərhələdə hər iki taktiki gedişlər

güzəştli mövqe tutaraq elmi inqilablara, onun struktur xüsusiyyətlərinin dəyişmələrini, dərketmə imkanlarını, kateqoriyalarını metodlarını və təşkilati formalı amillərinin yeniləşməsini əhatə etdiyi bir zamanda ciddi fəaliyyət yolu seçmiş akademik Y.M.Mahmudlunun əsərlərində dialektik proseslər, differensasiya, inteqrasiya, bünövrəli, tətbiqi tədqiqat kimi problemlərə uzlaşmaq məsələləri demək olar ki, sistemləşdirilmiş və yüksək səviyyədə əsaslandırılaraq artıq sübuta yetirilmişdir. Differenassiya, elmlərin qarşılıqlı formada yaxınlaşmalarını retrospektiv formada konkret çərçivə daxilində və yaxud bünövrəli elmlər sisteminə aid olan tarix hələilk insanın, ilk mədəni həyatının şəfəqlərinin başlanğıcı formasında istifadə edilmişdir. Akademik Y.M.Mahmudlu [4] tarix elmi məsələlərinin həllinin xüsusiyyətlərini yüksək səviyyədə aktivləşdirməkdən ötrü ilk növbədə onun nəzəri və metodoloji nəzəriyyəsini, bir tərəfdən müasir elmi-texnikanı, cəmiyyətdə sosial tərəqqini, digər tərəfdən tədqiqatın özünün mürəkkəbləşməsini və onun dərk olunmasını sürətləndirən əsasnamələr işləyib hazırlamışdır. Baş verən mövcud mahiyyət dəyişikliklər sayəsində tarixdə fəlsəfənin ümumidünyəvi, ümuminəzəri və ümumimetodoloji imkanlarının dərinləşməsinə əlverişli şərait yaratmışdır. Müasir elmi-nəzəri mərhələnin təcrübi inkişaf istiqamətlərinin son həddində bəlli olur ki, fəlsəfənin artıq öz qüvvəsilə bütünlüklə hərtərəfli inkişaflı həyatda baş verən dəyişikliklərin tamam öhdəsindən gələ bilməyəcəyini qabaqcadan duyan akademik Y.M.Mahmudlu elmi-nəzəri məsələlərdə yaxınlaşmaların yolunu asanlaşdırmaq üçün əsas diqqətini tarixi hadisələrin, faktların, faktorlarının analiz, sintez və metodologiyası xüsusiyyətlərinin açılması yollarına aydınlıqlar gətirmiş oldu. Y.M.Mahmudlunun rəhbərliyi altında yazılan məqalə, tezis, monoqrafiya, müdafiə olunan dissertasiyalar, tarix elminin hər bir sahəsində ilkin olaraq sintezləşdirilməsi və onun digər elmlərlə qarşılıqlı əlaqələri imkanlarına daha çox diqqət yetirməyə yönəldir. Y.M.Mahmudluyaqədər elmi dərk etmənin mövcud iki istiqamətdə obyektiv-subyektiv dialektik imkanlardan istifadə olunurdu. Y.M.Mahmud-lunun əsərlərində istifadə olunan metodologiyaya ümummillilik, nəzəri və məntiqi-qnoseoloji əsaslara daha çox önəm verilir, hansı ki, indiki mərhələdə bu problemli məsələlər sadəcə diqqətdən kənarda saxlanmasına çalışılırdı.

Yuxarıda deyilənləri nəzərə alaraq bu qənaətə gəlmək olar ki, akademik Y.M.Mahmudlunun çox saylı araşdırmalarında [5] ümumnəzəri, məntiqi-qnoseoloji, məntiqi, metodoloji imkanlarla yanaşı, həçinin məntiqi təyinetmələrə, texnotexnologiyaya və elmi dərketmə proseslərinin səviyyə imkanlarından asılı olaraq ətraflı aydın cavab tapmaq mümkündür.

Akademik Y.M.Mahmudlunun onaltı cildlik seçilmiş kompleksli tədqiqat əsərləri üç vacib hissəyə və on əsas həyati başlıqlara ayırmaq mümkündür:

I. Elmi tədqiqatın metodologiyasının fəlsəfi əsaslarının birinci hissəsində:
- 1) adi dərketmələr;
- 2) elmi dərketmələr;

II. Elmi tədqiqatlardakı metod və metodologiya anlayışları:
- 1) elmi metodlar;
- 2) elmi tədqiqatlarda metodologiya;

III. Elmi tədqiqatlarda metodların tipologiyası:
- 1) mənəvi metodlar (elmi);
- 2) təcrübi fəaliyyət metodları.

Əsərlərində elmi metodlar bir sıra dəstə malikdirlər:
- 1) formal metodlar (formal və riyazi simvolik məntiqi);
- 2) məzmunlu: fəlsəfi, ümumelmi, fərdi elmi metodlar.

Seçilən metodlar aşağıdakılardan ibarətdir: emprik, nəzəri, bünövrəli, tətbiqi, tədqiqat metodları və idarəetmə metodları.

Mahiyyətinə görə araşdırmalardakı metodlar böyük dəstələrə ayrılmışdır:
- a) təbiətşünaslıq metodları;
- b) sosial-humanitar metodlar.

Təbiətşünaslıq metodları üç dəstəyə bölünür:
- a) üzvi-təbii metodlar;
- b) qeyri-üzvi təbii metodlar;
- c) keyfiyyət, kəmiyyət, mümkünlük və birbaşa dərketmələr.

Akademik Y.M.Mahmudlunun tədqiqatlarında metodlar aşağıdakılardan ibarətdir:

I. Ümumifəlsəfi metodlar (dialektik, metafizik metodlar): analitik, fəhmlilik, fenomenoloji, hermenevtiklər (dərketmələr).

II. Ümumielmi metodlar: informasiya, model, struktur, funksiya, sistem, element mümkünlüyü, münasiblik.

III. Fərdi tədqiqat metodları: mexanika, fizika, kimya, geologiya, biologiya, sosial elmlər.

IV. Elmi tədqiqatların fənn metodları: biofizika, geofizika, fiziki-kimya, geokimya, elektrokimya.

V. Fənlərarası birləşmə tədqiqat metodları.

Akademik Y.M.Mahmudlunun elmi tədqiqat proseslərində məntiqi məsələlərinin təhlili problemləri xüsusi yer tutur. «Elmi tədqiqatda məntiqi proseslərl əhatə edən ikinci hissədə:

1. Elmi tədqiqatlarda faktların rolu;
2. Elmi problemlərinin quruluşu və formalaşdırılması;
3. Elmi hipozetlərin məzmunun irəli sürülməsi və əsaslandırılması;
4. Elmi tədqiqatda nəzəriyyənin mahiyyəti və rolu xüsusi yer tutur.

Birinci bölümdə Y.M.Mahmudlunun əsərlərində faktın həqiqiliyini, elmiliyini, faktların elmi-nəzəriliyini, onun emprik mərhələsinin ilk pilləsi, emprikliyinin ikinci mərhələsindəki ilkin dövretməni, faktların qiymətləndirilməsi; üçüncü mərhələdəki məntiqi-nəzəri məsələlər üstün yer tutur.

İkinci bölümdə elmi-nəzəri problemlərinin formalaşdırılması;

Üçüncü bölümdə mövcud hipozetlərin məzmun aspekt və onun strukturu, hipozetlərin çeşidləri, işlək, elmi, fərdi, ümumi xüsusiyyətləri, emprik və nəzəri meyarı, təsvir və izahetmələr, hipotezin nəzəri biliyin formaları, elmi-nəzəri biliyin metodların inkişafı kimi, məsələlər, önəmli rola malikdirlər.

Dördüncü bölümdə nəzəri problemlər, onların strukturları: a) nəzəriyyənin sintetik, izahetmələri; dünyagörüşü: metodologiyası, qabaqcadan xəbər vermələr, görmə, praktik funksiyalarının rolu, təhlil analizlərininin çeşidləri ardıcıllıqla şərh edilmişdir.

Y.M.Mahmudlunun nəşr olunan elmi-tədqiqat əsərlərindəki metodlarda aşağıdakı problemləri yüksək səviyyədə analiz-sintezləşdirmişdir. «Elmi tədqiqatlarda anlayışların səviyyələr»ini əhatə edən üçüncü hissəsində:

1) elmi tədqiqatların anlayış və məzmun bölümlərində akademik elmi tədqiqatlarda emprik səviyyələrinin dərketmələrinin predmetində baş bölüm pilləsini irəli atır:

1) tədqiqatlardakı nəzəri səviyyələr;

2) emprik informasiyalardakı yığım metodları: seyretmələr, sosioloji seyretmələrin spesifikası, seyretmələrdəki metodlarda çatışmazlıq;

3) eksperimentlər: sosioloji eksperimentlərin xüsusiyyətləri;

4) tədqiqatlarda sosioloji ölçmələr;

5) tədqiqatlarda ümumi-məntiqi metodlar;

6) elmi tədqiqatlarda nəzəri metodlar;

7) elmi tədqiqatlarda tarix və məntiqi metodlar:

a) tarixi metodların mahiyəti;

b) tədqiqatın məntiqi metodları,

c) tarixi-məntiqi prinsiplərdə dialektik vahidlik kimi müasir tarix elmləri sahələri üçün vacib olan və indiyə qədər ancaq epizodik formada istifadə olunmuş məntiqi-qnesoloji və məntiqi-metodoloji problemlərin həllinə geniş imkanlar açmışdır.

Akademik Y.M.Mahmudlu mənbəşünaslıq sənədlərinin həqiqiliyi [3] və aliliyinin təcrübi tələbatından irəli gəldiyini şərh edərək, əsərlərində real olaraq onun, yəni Antik-Orta əsrlərdə [9] elmi tarixi aspektlərinin çox mürəkkəb, çətin yollardan keçməsini və tarix elminin ən yaxın yardımçı sahələrindən biri hesab edir. Onun predmetini müasir sosio-mədəniyyət və nəzəri dərketmə mərhələsində mədəni fenomen, insanın geniş mənada yaradıcılıq hasilatı kimi digər humanitar və sosial elmlərdə obyekt kimi çıxış etdiyini, hətta çoxsahəli elmlər sisteminin tərkibində fəaliyyət proqramı kimi təqdim edir. Eyni zamanda Y.M.Mahmudlunun çoxsaylı monoqrafiyalarında bu əvəzolunmaz elmin tarixin digər yardımçı sahələri ilə qarşılıqlı yaxınlaşma prinsipləri əsasında hərəkət etməsini dönə-dönə təkrar edir. Məsələn, paleoqrafiyanın, yazılı abidələrin xarici əlamətlərini, tarixi xronologiyanın zaman imkanlarını, ölçü vahidi-metrologiyanın tarix elmində oynadığı rolunun imkanlarını, möhürləri öyrənən

sfragistikanı, herbləri təhlil edən heraldikanı, fərqlənmə nişanlarını faleristikanı, bayraqları öyrənən leksikologiyanın nəzəri və təcrübi əsaslarının mənimsənilməsinə düzgün yanaşmağı məsləhət bilir.

Tarixi-tarixşünaslıq [7] tədqiqatları müasir intellektual mədəniyyət konteksində mənimsəmək indiki inkişafın aktual akademik sahələrdən biri hesab olunur. Təcrübi olaraq bütün akademik fənlər daha tez identifikasiya olunur, yəni özünün ölçü və istifadəsi sahəsində birbaşa əsas məqsədə keçə bilir və burada sübuta ehtiyac qalmır. Y.M.Mahmudlunun fikirlərinə görə, digər akademik fənlərə nisbətdə tarixşünaslığın özünün ayrıca müəyyənləşdirilməsi dentifikasiyalı istinadı referent üsullar mövcud deyildir (tarixin tarixi və yaxud da tarixin tarixşünaslığı).

Y.M.Mahmudlunun fikirlərinə görə Azəbaycanın tarix elminin tarixşünaslığı indiyədək üç ölçüdə və yaxud da üç model əsasında yazılmışdır: Tarix-tarixşünaslıqda ön planda tarixdə bünövrəli prinsiplərin dəyişmələri, kateqoriyaları, metodları və dərketmələrin məzmununun genişlənməsi, tarixi proseslərin, inkişafın mövcudluğu, tarixi mədəniyyətin, tarixi düşüncəsinin stili, tarixi təsviretmələr, elmi tədqiqat vəsaitlərinin və formalarının: mənəvi mədəniyyət, sosial, siyasi, təşkilati, informatik, məfkurəvi şərait (hər hansı bir dövrün) üstünlüyə malik olmasıdır. Müasir mərhələdə problemli tarixşünaslıq elmi Y.M.Mahmudlunun fikrinə görə, hələlik instrumental xarakter daşımaqda davam etməkdədir.

Nəticə. Beləliklə, akademik Y.M.Mahmudlunun tövsiyyələrini əsas tutaraq elmlərin sistemləşdirilməsi, qarşılıqlı formada yaxınlaşmaları və eyni zamanda bir-birindən yeri düşəndə uzaqlaşmalarının əsaslarının başlıca amilləri çıxarmaqla onların hərtərəfli təhlil yollarını göstərməkdən ibarət olmasıdır.

ƏDƏBİYYAT

1. Əhmədov, Q.M. Orta əsr Beyləqan şəhəri / Q.M.Əhmədov.-Bakı: Elm,-1979.-198 s.
2. Əsədov, M.Ə. Azərbaycan XIII-XV əsrin birinci yarısında / M.Ə.Əsədov tarix üzrə fəlsəfə doktoru diss. avtoreferatı /-Bakı, 1996, 32 c.
3. Hordadbeh, İbadulla, Əbül Qasim ibn Abdulla. Kitab əl-masalik və əl-məmalik («Yollar və dövlətlər kitabı»). Z.M.Buniyadovun «Azərbaycan tarixinə dair mənbələrin xüasəsi» (Ərəb mənbələri) kitabından. Bakı: Azərdaycan EA nəşr.,- 1964.-37 s.
4. Mahmudov, Y.M. Azərbaycan: Qısa dövlətçilik tarixi / Y.M.Mahmudov.-Bakı: Təhsil, 2005.-140s.
5. Mahmudov Y.M. Özümüz / Y.M.Mahmudov.-Bakı: Azpoliqraf,-2008.-172 s.
6. Məmmədov, Z.C. Azərbaycanın Orta əsr filosfları və zəkaları / Z.C.Məmmədov.-Bakı: Elm,-1993.-88 s.
7. Nəcəfli, T.H. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasirtürk tarixşunaslığında / T.H.Nəcəfli.-Bakı: Çaşıoğlu,-2000.-107 s.
8. Orucov, Ə.A. Azərbaycan xalqı milli özünədərk yollarında: IX sonu-XX ə. əvvəllərində / Ə.A.Orucov.- Bakı: Avropa,-2012.-251 s.
9. Şərifli, M. IX əsrin ikincyarısı-XI əsrlərdə Azərbaycanın feodal dvlətləri / M. Şərifli.-Bakı: Elm,-1978.-314 s.

ГАСАНАГА РАМАЗАНЛЫ
Ведущий научный сотрудник отдела
«Неолит-энеолитической археологии Азербайджана»
Института Археологии и Антропологии НАНА,
доктор философии по истории

ПРОБЛЕМЫ РЕШЕНИЯ ДИФФЕРЕНЦИАЦИИИ КОНЦЕНТРАЦИИ НАУКИ, МЕТОДОЛОГИИ, ИСТОЧНИКОВЕДЕНИЯ И ИСТОРИОГРАФИИ В НАУЧНЫХ ТРУДАХ АКАДЕМИКА Я.М.МАХМУДЛУ

В данной работе рекомендуется подход к основным аспектам, рассматриваемых как абстрактная совокупность, дополняющая друг друга в ходе научно-теоретических, бесчисленных

процессов, многогранных направлений на определение взаимодействия науки, последовательные действия и национальное самосознание в этой области.

В трудах академика Я.М.Махмудлу, выбравшего серьезный путь деятельности, практически систематизированы и обоснованы на высоком уровне вопросы ухода от проблемных вопросов, такие как диалектические процессы, дифференциация, литография, фундаментальные, прикладные исследования. Дифференциация, сближение наук во взаимной форме, в ретроспективной форме конкретных проблем в пределах рамок, изучаемых исторической наукой, в сложной системе фундаментальных наук, в настоящее время употребляется в качественных россецов зарождения культурной жизни человека.

Ключевые слова: Азербайджан, источниковедение, историография, методология, научно-теоретический анализ.

HASANAGA RAMAZANLI
Leading researcher at the Department of "Neolithic-Eneolithic Archeology of Azerbaijan" of the Institute of Archeology and Anthropology of the National Academy of Sciences of Azerbaijan, Doctor of Philosophy in History

SOLVING OF THE PROBLEMS OF THE DIFFERENTIATION AND CONCENTRATION OF SCIENCE, METHODOLOGY, SOURCE STUDIES AND HISTORIOGRAPHY IN THE SCIENTIFIC WORKS OF ACADEMICIAN Y.M. MAHMUDLU

This article recommends an approach to the main aspects, considered as an abstract set that complements each other in the course of scientific and theoretical, countless processes and multifaceted directions to definition of the interaction of science, consistent actions, national identity in this aspect.

In the works of academician Y.M.Mahmudlu, who chose a serious path of activity, practically systematized and substantiated at a high level the issues of avoiding problematic issues, such as dialectical processes, differentiation, lithography, fundamental and applied research. Differentiation, the bringing together of sciences in a mutual form, in the retrospective form of specific problems within the framework studied by historical science, in a complex system of fundamental sciences, is currently used as processes for the emergence of human cultural life.

Keywords: Azerbaijan, source studies, historiography, methodology, scientific-theoretical, analysis.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Xaləddin Xəlilli, t.e.d. Qabil Əliyev.